UOT 94 (479.24)

# AZƏRBAYCAN ƏHALİSİNİN MİQRASİYASININ BƏZİ PROBLEMLƏRİ (1990-2009-CU İLLƏR)

**L.L.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***L.Letife@ mail.ru***

*SSRİ-nin süqutu və Azərbaycanın müstəqillik əldə etməsi prosesində respublikada mövcud olan demoqrafik durum kökündən dəyişdi. Ölkədə baş verən demoqrafik dəyişikliklərə ciddi təsir göstərən amillərdən biri də əhalinin miqrasiyasıdır. Məqalədə demoqrafik proseslərin tənzimlənməsi, müvafiq əhali və onun tərkib hissəsi olan miqrasiya siyasətinin hazırlanması və s. problemlərdən bəhs edilir.*

**Açar sözlər:** Azərbaycan əhalisi, miqrasiya, miqrasiya saldosu, demoqrafiya

Məlumdur ki, müstəqillik ərəfəsində və dövründə başqa postsovet respublikalarında olduğu kimi Azərbaycan Respublikasında da mövcud olan demoqrafik durum köklü şəkildə dəyişdi. Ölkədə baş verən demoqrafik proseslərin dəyişməsinə ciddi təsir göstərən amillərdən biri də əhalinin miqrasiyasıdır. Bu problem, xüsusilə də əhalinin qeyri-qanuni miqrasiyası hazırda dünyanı narahat edən qlobal problemlərdən biridir. Belə ki, əhali içərisində baş verən demoqrafik proseslərin və xüsusilə də miqrasiyanın kortəbii şəkil alması böyük problemlərlə (aclıq, demoqrafik partlayış, yoluxucu xəstəliklər və s.) müşayiət olunur. Həmin hadisələrin idarə edilməsi, demoqrafik proseslərin tənzimlənməsi, müvafiq əhali və onun mühüm hissəsi olan miqrasiya siyasətinin hazırlanmasının əhəmiyyətini daha da artırmışdır (6, 3-4). Məhz bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr 290 nömrəli sərəncamı ilə qəbul edilmiş «Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasında» (1, 2911-2927) məsələnin bu tərəfinə xüsusi diqqət göstərilmişdir. Sonrakı illərdə də gənc respublika bu məsələni diqqət mərkəzində saxlamış və onun qanunvericilik bazarını daha da möhkəmləndirmişdir. Belə ki, 2002-ci ildə qəbul edilmiş «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının qanununda da gənclərin xaricə miqrasiyasının qarşısını almaq üçün onlara dövlət qaydasını genişləndirmək, gənclərin yeni peşələrə yiyələnməsi, iş və mənzillə təmin edilməsi, onlara torpaq sahələri və güzəştli kreditlərin verilməsi üçün geniş tədbirlər planı hazırlanmışdır (5, 858-859).

2004-cü ildə qəbul olunmuş «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramında əhalinin miqrasiyasının demoqrafik proseslərdə mühüm yer tutduğu qeyd edilir və bu problemi tənzimləmək üçün bir sıra tədbirlərin: miqrasiya üzrə informasiya mərkəzinin yaradılması, qanunsuz miqrasiya ilə mübarizəyə dair təkliflərin hazırlanması, daxili miqrasiya ilə bağlı uçot sahəsində vəziyyətin öyrənilməsi, məlumat mənbələrinin dəqiqləşdirilməsi və s.,-nəzərdə tutulmuşdu (2, 3201-3202). Nəhayət, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixi, 1575 №-li sərəncamı ilə «Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı» (2006-2008-ci illər) qəbul edildi. Proqramda qeyd edildiyi kimi, Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramına uyğun olaraq hazırlanmışdır və ölkədə mövcud miqrasiya proseslərinin təhlili əsasında bu sahənin gələcək inkişaf istiqamətlərini və həyata keçirilməli olan zəruri tədbirləri özündə əks etdirir» (8, 1617).

Proqramda qeyd edildiyi kimi, miqrasiya proseslərinin təhlili onun iki istiqamətinin: daxili və xarici miqrasiya, müəyyənləşdirilməsinə imkan verir. Məlumdur ki, Azərbaycan keçmiş Sovet respublikaları içərisində qaçqın və məcburi köçkün problemi ilə qarşılaşan ilk ölkələrdən biri olmuşdur. XX əsrin 80-ci illərinin ortalarında ölkə rəhbərliyi on illərlə yığılıb qalmış problemlərdən əhalinin diqqətini yayındırmaq məqsədilə «yenidənqurma», «demokratikləşmə», «aşkarlıq» və s. şüarları irəli sürdü. Bundan məharətlə istifadə edən ermənilər «Qarabağ problemini» yenidən gündəmə gətirdilər. Mərkəzin «ermənipərəst» siyasətindən istifadə edən ermənilər Qərbi Azərbaycanda yaşayan etnik azərbaycanlıların öz ata-baba yurdlarından qovulması prosesini başa çatdırdılar. Nəticədə 250 mindən çox soydaşımız Ermənistan SSR-dən qovularaq Azərbaycana pənah gətirdilər (9, 4). SSRİ-də keçirilən əhalinin sonuncu–1989-cu il, siyahıyaalması zamanı Ermənistan SSR əhalisinin 93, 3%-i ermənilər təşkil edirdilər (6, 136). Ermənistan faktik olaraq, on beş sovet respublikası arasında yeganə monoetnik dövlətə çevrilmişdir.

Onu da qeyd etmək lazımdır ki, 1989-cu ilin iyununda Özbəkistanın Fərqanə vilayətində baş verən etnik toqquşmalardan sonra öz yaşayış yerlərindən qaçmış 51 mindən çox mesxeti türkü də Azərbaycana gəldi ki, bu da qaçqınların sayının artmasına səbəb oldu. Bununla bərabər, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-i işğal olundu. Dağlıq Qarabağ və onun ətrafında olan yeddi rayonun: Laçın, Kəlbəcər, Ağdam. Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan,- işğalı nəticəsində onların 600 min nəfərdən çox əhalisi öz doğma vətənində məcburi köçkünə çevrildilər (7, 5). Eyni zamanda Ermənistan və Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrinin 100 mindən çox əhalisi də, ermənilərin təcavüzü nəticəsində öz daimi yaşayış yerlərini tərk etmişdilər. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2000-ci il məlumatına görə respublikada məskunlaşan qaçqın və məcburi

köçkünlərin sayı 788,8 min nəfər olmuşdur və Ermənistanla həmsərhəd rayonlarda məcburi köçkünlərin sayı da nəzərə alınmaqla Azərbaycanda qaçqın və məcburi köçkünlərin sayı 1 milyon nəfərdir (3, 11). Bundan başqa Ermənistanın Azərbaycana təcavüzü nəticəsində 20 mindən çox adam həlak olmuş, 50 min nəfər əlil olmuşdur. Əlbəttə yuxarıda göstərilən faktlar XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində respublikamızda və onun ətrafında baş verən hərbi-siyasi hadisələrlə bağlı ölkədə genişlənməkdə olan məcburi miqrasiya prosesinin intensivləşməsini göstərir.

«Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramında göstərildiyi kimi, 〈...〉 1990-1994-cü illərdə SSRİ-nin dağılması, ölkənin müharibə vəziyyətində olması, daxili qeyri-sabitlik və iqtisadiyyatın böhran keçirməsi ölkədə miqrasiyanın, o cümlədən əhalinin məcburi yerdəyişməsini gücləndirmişdi (2, 3201). Beləliklə, ölkədaxili məcburi miqrasiyanın əsas subyektləri həmin məcburi köçkünlərdir. Bütövlükdə, son zamanlar ölkə iqtisadiyyatının, o cümlədən regionların iqtisadi inkişafı, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması daxili miqrasiyanın nisbətən tənzimlənməsinə şərait yaratmışdır. Ona görə də, biz əsas diqqəti xarici miqrasiyaya, yəni immiqrasiya və emiqrasiyaya yönəldəcəyik. Müstəqilliyin ilk illərində Azərbaycanda və regionlarda baş verən hadisələr ölkəmizdən emiqrant axınını gücləndirdi. Halbuki, sovet dövrü adlandırdığımız dövrdə ən az hərəkətlilik Azərbaycan əhalisi arasında idi. Belə ki, bütün əhaliyə görə ən az miqrasiya 1,3% azərbaycanlılar arasında idi.

Bütün rəsmi dövlət sənədlərindən və tədqiqatlardan göründüyü kimi, miqrasiya proseslərinə dövlət səviyyəsində təsir göstərmək və onu tənzimləmək, qismən nizamlamaq üçün miqrantların dəqiq qeydiyyatının və statistikasının aparılması zəruridir. Lakin əksər hallarda miqrasiya, o cümlədən emiqrasiya və immiqrasiya haqqında dəqiq statistik məlumatlar əldə etmək olmur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hər il çap etdirdiyi «Azərbaycan əhalisi» adlı statistik məcmuədə miqrasiyaya həsr edilmiş cədvəli nəzərdən keçirək:

Cədvəldəki rəqəmlərdən də göründüyü kimi, 1990-cı ildən 2008-ci ilə qədər Azərbaycanda əhalinin miqrasiyası mənfi saldoya malik olmuşdur. Yəni Azərbaycandan gedənlər gələnlərdən sayca çox olmuşdur. Belə ki, müstəqillik ərəfəsində – 1990-cı ildə regionda baş verən hadisələrlə bağlı olaraq, 84,3 min nəfər Azərbaycana gəldiyi halda, 137,9 nəfər Azərbaycanı tərk etmiş və miqrasiya saldosu-53,6 min nəfər olmuşdur. Bu həmin dövrdə ölkədə gedən hərbi siyasi proseslərlə və iqtisadi vəziyyətlə bağlı olmuşdur. Təxminən 2001-ci ilə qədər miqrasiya prosesi sabitləşməyə və təbii ki, azalmağa doğru getmişdir.

**Azərbaycan Respublikası əhalisinin miqrasiyası [min nəfərlə] (4, 50)**

| illər | gələn | gedən | miqrasiya saldosu | o cümlədən | |
|---|---|---|---|---|---|
| | | | | şəhərdə | kənddə |
| 1990 | 84,3 | 137,9 | -53,6 | -52,7 | -0,9 |
| 1991 | 66,3 | 106,4 | -40,1 | -39,4 | -0,7 |
| 1992 | 35,7 | 49,9 | -14,2 | -13,8 | -0,4 |
| 1993 | 16,3 | 28,5 | -12,2 | -11,9 | -0,3 |
| 1994 | 8,6 | 19,6 | -11,0 | -10,8 | -0,2 |
| 1995 | 6,2 | 16,0 | -9,8 | -9,5 | -0,3 |
| 1996 | 5,8 | 13,2 | -7,4 | -7,2 | -0,2 |
| 1997 | 7,5 | 15,7 | -8,2 | -8,1 | -0,1 |
| 1998 | 5,4 | 10,5 | -5,1 | -5,0 | -0,1 |
| 1999 | 4,8 | 9,1 | -4,3 | -3,5 | -0,8 |
| 2000 | 4,4 | 9,9 | -5,5 | -5,0 | -0,5 |
| 2001 | 2,6 | 7,3 | -4,7 | -3,6 | -1,1 |
| 2002 | 1,2 | 4,3 | -3,1 | -2,0 | -1,1 |
| 2003 | 2,5 | 3,8 | -1,3 | -1,6 | 0,3 |
| 2004 | 2,4 | 2,8 | -0,4 | -0,7 | 0,3 |
| 2005 | 2,0 | 2,9 | -0,9 | -0,5 | -0,3 |
| 2006 | 2,2 | 2,6 | -0,4 | -1,9 | 1,5 |
| 2007 | 2,0 | 3,1 | -1,1 | -1,4 | 0,3 |
| 2008 | 3,6 | 2,5 | 1,1 | - | - |
| 2009 | 2,3 | 1,4 | 0,9 | - | - |

Respublikada yaranan ictimai-iqtisadi, siyasi sabitliklə bağlı olaraq ilk dəfə 2008-ci ildə Azərbaycanda miqrasiya saldosu müsbət 1,1 min nəfər olmuşdur. Bu proses növbəti 2009-cu ildə də davam etmiş, Azərbaycana gələnlər gedənlərdən 0,9 min nəfər çox olmuşdur.

Cədvəldə başqa bir məsələ də diqqəti cəlb edir. Şəhər əhalisi miqrasiyada «daha fəal iştirak edir». Yəni ölkədən gedən və gələnlərin əksəriyyəti şəhər əhalisidir. Məsələn, 1990-cı ildə-53,6 min nəfər miqrasiya saldosunun 52,7 min nəfəri şəhər əhalisinin payına düşdüyü halda, yalnız 0,9 min nəfəri kənd yaşayış məskənlərində yaşayanlar idilər.

Sovetlər İttifaqı çoxmillətli bir dövlət idi; bu dövlət uzun onilliklər ərzində təbliğ və təşviq etdiyi kimi milli məsələni həll etməmişdi və SSRİ-də xeyli dondurulmuş münaqişə ocağı var idi. Çoxmillətli bir dövlət kimi, SSRİ-nin dağılması zamanı postsovet məkanında olan bir çox respublikalarda müxtəlif xalqların nümayəndələri, o cümlədən azərbaycanlılar yaşayırdılar ki, onlar da müxtəlif səbəblər üzündən öz tarixi vətənlərinə qayıtmağa başladılar. Məhz bu səbəbdən də müstəqillik ərəfəsində və onun ilk illərində Azərbaycana gələnlərin əksəriyyəti MDB ölkələrindən gəlmişdilər. Məsələn, 1990-cı ildə Azərbaycana gələn 84.279 nəfərdən 83184 nəfəri keçmiş sovet respublikalarından-MDB-dən gələnlər təşkil etmişdilər. Sonrakı illərdə də bu meyl özünü qabarıq şəkildə büruzə vermişdir: 1995-ci ildə Azərbaycana gələn 6222 nəfərin 5953 nəfəri, 2007-ci ildə isə müvafiq olaraq 1954 nəfəri MDB ölkələrindən

gələnlər olmuşlar.

MDB ölkələri içərisində Azərbaycana ən çox miqrant verən və qəbul edən Rusiya Federasiyası olmuşdur. 1990-cı ildə MDB ölkələrindən Azərbaycana gələn 83184 nəfər miqrantın 30857 nəfəri Rusiya federasiyasının payına düşür. Azərbaycana miqrant verən MDB ölkələrini miqrantların sayına görə sıralasaq aşağıdakı nəticələri almış olarıq: 1. Rusiya Federasiyası, 2. Özbəkistan; 3. Gürcüstan; 4. Ukrayna; 5. Qazaxıstan; 6. Qırğızıstan; 7. Türkmənistan və s.

Azərbaycana ən çox miqrant verdiyi kimi, Azərbaycandan da ən çox miqrant qəbul edən MDB ölkəsi Rusiya Federasiyasıdır. Qəbul etdiyi miqrantların sayına görə Rusiyadan sonra Ukrayna, Qazaxıstan, Gürcüstan, Belorus, Türkmənistan və Özbəkistan gəlir.

Yuxarıda göstərilənlərlə yanaşı postsovet məkanında Azərbaycan ən çox qaçqın və məcburi köçkünlə qarşılaşan respublikadır. Hal-hazırda Azərbaycanda bir milyona yaxın məcburi köçkün və qaçqın var.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası// Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2001, №8, s. 2921-2927.
2. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişaf sahəsində Dövlət Proqramı//Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2004, №11, s. 3198-3224.
3. Azərbaycan rəqəmlərdə. 2000. Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi, 2000, 117 s.
4. Azərbaycan əhalisi (statistik bülleten) 2008. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2008, 113 s.
5. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2002, №5, s. 853-861.
6. Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: BDU, 2003, 301 s.
7. Краткая информация об истории Карабаха. Баку: Фонд Гейдара Алиева. Из серии «Карабахские реалии», 2006, 14 с.
8. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər) // Azərbaycan Respublikasının Qanunvericilik toplusu, 2006, №7, s. 1617-1627.
9. Начало Карабахского конфликта. Баку: Фонд Гейдара Алиева. Из серии «Карабахские реалии», 2006, с.14


## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ МИГРАЦИИ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА (1990-2009 гг.)


**Л.Л.ГАСАНОВА**


## РЕЗЮМЕ


В процессе распада СССР и завоевания Азербайджаном независимости произошли серьезные изменения в демографической ситуации существующий в республике. Одним из важных факторов, оказавших влияния на демографические изменения в стране, миграция населения.

В статье повествуется о стабилизации демографических процессов, народонаселении и подготовка миграции как ее составной части и др. проблемах.



**Ключевые слова:** население Азербайджана, миграция, сальдо миграции, демография

## SOME PROBLEMS OF MIGRATION OF THE AZERBAIJAN POPULATION (1997-2009)

**L.L.HASANOVA**

**SUMMARY**

The processes of collapse of the Soviet Union and independence of Azerbaijan radically changed the existing demographic situation.

Migration of the population is one of the factors seriously influencing demographic changes in the country.

The article deals with the regulation of demographic processes, migration policy and other problems.

**Key words:** Population of Azerbaijan, migration, the balance of migration, demography